

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

# ŞƏRQ qapısı

*Qəzet 1921-ci ildən çıxır*

**Təsisçi:** *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 236 (24.373)

*20 dekabr 2023-cü il, çərşənbə*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.gov.az

Qiymәti 30 qәpik



## Altıncı çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin 2023-cü il payız sessiyasının yeddinci iclası keçirilib

Dekabrın 19-da Ali Məclis sədrinin müavini Anar İbrahimovun sədrliyi ilə altıncı çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin 2023-cü il payız sessiyasının yeddinci iclası keçirilib.

İclasın gündəliyinə aşağıdakı məsələlər verilib:

1. "İşsizlikdən sığorta fondunun 2024-cü il büdcəsi haqqında" Naxçıvan Muxtar Respublikası Qanununun layihəsi (ikinci oxunuş)

2. Cari məsələlər

Gündəlikdə duran birinci məsələ ilə bağlı Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin müavini Anar İbrahimov bildirib ki, qanun layihəsi 18 dekabr 2023-cü il tarixdə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Daxili Nizamnaməsinin 18-ci və 19-cu maddələrinə uyğun olaraq birinci oxunuşda müzakirə edilib, Ali Məclisin protokol qaydasında qərarı ilə birinci oxunuşda qəbul olunub. Qanun layihəsi Sosial siyasət komitəsində müzakirə edilərək ikinci oxunuş üçün Ali Məclisin iclasına təqdim olunması qərara alınıb.

Qanun layihəsinin ikinci oxunuşda müzakirəsi ilə əlaqədar Sosial siyasət komitəsinin sədri Yeganə Məmmədova məlumat verib.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin müavini Anar İbrahimov bildirib ki, Ali Məclisin Daxili Nizamnaməsinin 20.3-cü maddəsinə əsasən ikinci oxunuşda müzakirə edilən qanun layihəsinin əsas kimi qəbul edilməsi barədə protokol qaydasında qərar qəbul edilməlidir. Bu cür qərar qəbul edilməzsə, qanun layihəsi qəbul edilməmiş sayılır.

Qanun layihəsi səsə qoyularaq ikinci oxunuşda əsas kimi qəbul edilib.

Sonra qanunun maddə-maddə müzakirəsinə başlanılıb. Naxçıvan Muxtar Respublikasının əmək və əhalinin sosial müdafiəsi naziri Ceyhun Cəlilov "İşsizlikdən sığorta fondunun 2024-cü il büdcəsi haqqında" Naxçıvan Muxtar Respublikasının Qanun layihəsini gəlir və xərc istiqamətləri üzrə maddələrlə diqqətə çatdırıb.





Sonra qanun layihəsi səsə qoyularaq ikinci oxunuşda qəbul edilib.

Cari məsələlərin müzakirəsi zamanı təmsil etdikləri seçki dairələri üzrə deputatlardan Ehtimad Məmmədov, Turan Məmmədli içməli və suvarma suyu problemi, İsa Məmmədov əhalinin məşğulluğunun təmin olunması, şəhid adlarının əbədiləşdirilməsi, Qadir İbrahimov gənclərin asudə vaxtlarının səmərəli təşkili, Hüseyn Niftəliyev Nehrəm qəsəbəsində uşaq bağçasının tikilməsi ilə bağlı seçicilərinin istəklərini diqqətə çatdırıblar. Hüseyn Niftəliyev, həmçinin Nehrəm qəsəbəsində içməli su və kanalizasiya xəttinin çəkilməsi istiqamətində həyata keçirilən işlərə görə qəsəbə sakinləri adından minnətdarlığını bildirib.

Depuat İsmayıl Qəribli autizm sindromlu uşaqların müalicəsinin böyük vəsait tələb etdiyini, Bakı şəhərində Heydər Əliyev Fondunun dəstəyi ilə Autizm Mərkəzinin fəaliyyətə başladığını bildirib, Naxçıvan şəhərində də Autizm Mərkəzinin yaradılmasının mümkünlüyündən danışıb.

Deputatlardan Həbibə Allahverdiyeva, Yeganə Məmmədova, Sevda Quluyeva, Aidə Allahverdiyeva, Nüsrət Həsənov və Vüsalə Əliyeva da seçicilərinin qaldırdığı məsələləri iclasda diqqətə çatdırıblar.

Naxçıvan Muxtar Respublikasının əmək və əhalinin sosial müdafiəsi naziri Ceyhun Cəlilov deputatların ünvanladıqları sualları aidiyyəti üzrə cavablandırıb, digər qaldırılan məsələlərə aydınlıq gətirilməsi üçün hökumət üzvləri tərəfindən qeydiyyat aparılıb.

Bununla da Naxçıvan Muxtar Respublikası Ali Məclisinin iclası öz işini başa çatdırdı.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

## "Naxçıvan Muxtar Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi yanında Ekoloji Ekspertiza, Ətraf Mühitə və Təbii Ehtiyatlardan İstifadəyə Nəzarət Xidməti haqqında Əsasnamə"nin təsdiq edilməsi barədə

## Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin

## Fərmanı

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 30-cu maddəsini və 5-ci maddəsinin II hissəsinin 22-ci bəndini rəhbər tutaraq, Naxçıvan Muxtar Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi yanında Ekoloji Ekspertiza, Ətraf Mühitə və Təbii Ehtiyatlardan İstifadəyə Nəzarət Xidmətinin fəaliyyətini təmin etmək məqsədilə **qərara alıram:**

1. "Naxçıvan Muxtar Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi yanında Ekoloji Ekspertiza, Ətraf Mühitə və Təbii Ehtiyatlardan İstifadəyə Nəzarət Xidməti haqqında Əsasnamə" təsdiq edilsin (əlavə olunur).

2. Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti və Naxçıvan Muxtar Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi bu Fərmandan irəli gələn məsələləri həll etsinlər.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin müavini Anar İBRAHİMOV**

*Naxçıvan şəhəri, 19 dekabr 2023-cü il*

***Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin 2023-cü il 19 dekabr tarixli Fərmanı ilə təsdiq edilmişdir***

## Naxçıvan Muxtar Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi yanında Ekoloji Ekspertiza, Ətraf Mühitə və Təbii Ehtiyatlardan İstifadəyə Nəzarət Xidməti haqqında

## ƏSASNAMƏ

### 1. Ümumi müddəalar

1.1. Naxçıvan Muxtar Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyi yanında Ekoloji Ekspertiza, Ətraf Mühitə və Təbii Ehtiyatlardan İstifadəyə Nəzarət Xidməti (bundan sonra – Xidmət) "Ətraf mühitin mühafizəsi haqqında", "Ekoloji təhlükəsizlik haqqında" və "Ətraf mühitə təsirin qiymətləndirilməsi haqqında" Azərbaycan Respublikasının qanunlarına uyğun olaraq, Naxçıvan Muxtar Respublikasının ərazisində və Araz çayının Azərbaycan Respublikasına mənsub olan hissəsində ətraf mühitin və təbii ehtiyatların (yerin təki istisna olmaqla), o cümlədən ekoloji baxımdan torpağın münbitliyinin qorunması, bioloji müxtəlifliyin, flora (o cümlədən meşə və yaşıllıqlar), fauna (o cümlədən balıq və digər su bioresursları), xüsusi mühafizə olunan təbiət əraziləri və obyektlərinin mühafizəsi, atmosfer havasının çirklənməsinin qarşısının alınması və su ehtiyatlarından səmərəli istifadə, tullantıların idarə olunması sahələrində (bundan sonra – müvafiq sahə) Azərbaycan Respublikasının və Naxçıvan Muxtar Respublikasının normativ-hüquqi aktlarının və Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrin müddəalarına riayət edilməsinə dövlət nəzarətinin həyata keçirilməsində iştirak edən, təsərrüfat fəaliyyətinin və digər fəaliyyətlərin dövlət ekoloji ekspertizasından keçirilməsi də daxil olmaqla, ekoloji təhlükəsizliyin tələblərinə uyğunluğunu müəyyən edən Naxçıvan Muxtar Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyinin (bundan sonra – Nazirlik) strukturuna daxil olan qurumdur.

1.2. Xidmət öz fəaliyyətində Azərbaycan Respublikasının və Naxçıvan Muxtar Respublikasının konstitusiyalarını və qanunlarını, Azərbaycan Respublikası Prezidentinin və Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin fərman və sərəncamlarını, Azərbaycan Respublikası Nazirlər Kabinetinin və Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin qərar və sərəncamlarını, Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələri, Nazirliyin hüquqi aktlarını və bu Əsasnaməni rəhbər tutur.

1.3. Xidmət bu Əsasnamədə nəzərdə tutulan vəzifələri və hüquqları Naxçıvan Muxtar Respublikasının bütün ərazisində bilavasitə həyata keçirir.

1.4. Xidmət öz vəzifələrini yerinə yetirərkən və hüquqlarını həyata keçirərkən dövlət və yerli özünüidarəetmə orqanları, qeyri-hökumət təşkilatları ilə, habelə hüquqi və fiziki şəxslərlə qarşılıqlı əlaqədə fəaliyyət göstərir.

1.5. Xidmətin müstəqil balansı, istifadəsində olan dövlət əmlakı, xəzinə və bank hesabları, üzərində Azərbaycan Respublikası Dövlət Gerbinin təsviri, Nazirliyin adı və öz adı həkk olunmuş möhürü, müvafiq ştampları və blankları vardır.

1.6. Xidmətin saxlanılma xərcləri və fəaliyyəti Naxçıvan Muxtar Respublikası büdcəsinin vəsaiti, büdcədənkənar vəsait və qanunda nəzərdə tutulan digər mənbələr hesabına maliyyələşdirilir.

1.7. Xidmət Naxçıvan şəhərində yerləşir.

### 2. Xidmətin fəaliyyət istiqamətləri

2.1. Xidmətin fəaliyyət istiqamətləri aşağıdakılardır:

2.1.1. müvafiq sahədə dövlət siyasətinin həyata keçirilməsi ilə bağlı Nazirliyə təkliflər vermək;

2.1.2. müvafiq sahədə aidiyyəti dövlət qurumları ilə əməkdaşlıq etmək, təkliflərin işlənilib hazırlanmasında və həyata keçirilməsində iştirak etmək;

2.1.3. ekoloji tarazlığın qorunması və təhlükəsizliyin təmin edilməsi, təbii ekoloji sistemlərə təsərrüfat və digər fəaliyyətlərin zərərli təsirinin qarşısının alınması istiqamətində problemlərin həllinə yardım göstərmək;

2.1.4. məişət və istehsalat tullantılarının, atmosfer havasına və su hövzələrinə atılan tullantıların idarə edilməsi, xüsusi mühafizə olunan təbiət əraziləri və obyektlərinin mühafizəsi sahəsində, habelə ovçuluq təsərrüfatlarının, ov yerlərinin və ov obyektlərinin mühafizəsində, bütövlükdə, ətraf mühitə zərərli fiziki təsir göstərən fəaliyyət sahələrində qayda və normalara əməl olunmasına fasiləsiz nəzarəti həyata keçirmək;

2.1.5. müvafiq sahədə dövlət nəzarətini həyata keçirmək;

2.1.6. ekoloji təhsil və maarifləndirmə sahəsində dövlət siyasətinin formalaşdırılmasında iştirak etmək;

2.1.7. dövlət və yerli özünüidarəetmə orqanları, hüquqi və fiziki şəxslər tərəfindən müvafiq sahələr üzrə qanunvericiliyin tələblərinə riayət olunması üçün tədbirlər görmək.

*Ardı 2-ci səhifədə*

### 3. Xidmətin vəzifələri

3.1. Bu Əsasnamə ilə müəyyən edilmiş fəaliyyət istiqamətlərinə uyğun olaraq Xidmətin vəzifələri aşağıdakılardır:

3.1.1. müvafiq sahəni tənzimləyən normativ-hüquqi aktların layihələrinin hazırlanmasında iştirak etmək, hazırlanmış layihələrə dair rəy və təkliflərini Nazirliyə təqdim etmək;

3.1.2. müvafiq sahədə proqnozlar hazırlamaq və prioritetlər üzrə təkliflər vermək;

3.1.3. qanunla müəyyən olunan hallarda dövlət ekoloji ekspertizasının obyektləri üzrə dövlət ekoloji ekspertizasını aparmaq;

3.1.4. şəhərsalma və tikinti qanunvericiliyinə uyğun olaraq ərazi planlaşdırılması sənədlərinə rəy vermək;

3.1.5. "Ətraf mühitə təsirin qiymətləndirilməsi haqqında" Azərbaycan Respublikasının Qanununa müvafiq olaraq nəzərdə tutulan fəaliyyətlə məşğul olan müəssisələr üzrə onların ətraf mühitə təsir göstəricilərinə dair ekoloji sənədlər (atıla bilən tullantı həddi (ABTH), buraxıla bilən axıntı həddi (BBAH) təsdiqləmək və razılaşdırmaq;

3.1.6. "Mülki dövriyyənin müəyyən iştirakçılarına mənsub ola bilən və dövriyyədə olmasına xüsusi icazə əsasında yol verilən (mülki dövriyyəsi məhdudlaşdırılmış) əşyaların siyahısı haqqında" Azərbaycan Respublikasının Qanununa əsasən mülki dövriyyənin müəyyən iştirakçılarına mənsub ola bilən və dövriyyədə olmasına icazə əsasında yol verilən (mülki dövriyyəsi məhdudlaşdırılmış) əşyaların dövriyyəsinə icazə vermək;

3.1.7. su obyektlərindən xüsusi məqsədlər üçün istifadəyə icazə vermək;

3.1.8. yaşıllığın götürülməsinə dair rəy vermək;

3.1.9. istehsal üçün yabanı dərman bitkiləri xammalının tədarükünə lisenziya verilməsinə dair rəy vermək;

3.1.10. "Heyvanlar aləmi haqqında" Azərbaycan Respublikasının Qanununa əsasən mikroorqanizmləri yeni ştamlarının, bioloji aktiv maddələrin yaradılması, genetik dəyişilmiş orqanizmlərin yetişdirilməsi və başqa biotexnoloji məhsulların istehsalına dair rəy vermək;

3.1.11. Azərbaycan Respublikasının Torpaq Məcəlləsi ilə müəyyən edilmiş qaydada torpaqların kateqoriyalara aid edilməsi və onların bir kateqoriyadan digərinə keçirilməsinə dair sənədlərə rəy vermək;

3.1.12. ətraf mühitə təsirin qiymətləndirilməsi üzrə qiymətləndiricilərin və təşkilatların reyestrinin aparılmasını və ətraf mühitə təsirin qiymətləndirilməsi üzrə qiymətləndiricilərə ixtisas attestatının verilməsi üçün Nazirliyə təkliflər vermək;

3.1.13. dövlət ekoloji ekspertizası fəaliyyətini təşkil etmək və inkişaf etdirmək məqsədilə bu istiqamətdə mərkəzlərin və digər təsisatların (infrastrukturun) yaradılması ilə bağlı Nazirliyə təkliflər vermək;

3.1.14. müvafiq sahə ilə bağlı innovativ layihələrin (o cümlədən startapların) istifadə imkanını araşdırmaq və təkliflər vermək;

3.1.15. "Tullantılar haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq tullantıların yerləşdirilməsi, basdırılması və emalı üçün torpaq sahələrinin ayrılmasına aidiyyəti üzrə razılıq vermək;

3.1.16. irihəcmli və mürəkkəb ekoloji ekspertiza obyektlərinin dövlət ekoloji ekspertizasının həyata keçirilməsi üçün Ekspert Komissiyası yaratmaq;

3.1.17. Nazirliyin razılığı ilə müvafiq sahədə Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrin həyata keçirilməsini təmin etmək;

3.1.18. aidiyyəti qurumlarla birlikdə təhlükəli ekoloji vəziyyətlərin yaranması və genişlənməsi təhlükəsi yaradan halların və hadisələrin aşkarlanmasında, habelə proqnozlaşdırılmasında iştirak etmək;

3.1.19. "Atmosfer havasının mühafizəsi haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq dövlət nəzarətini həyata keçirmək, atmosfer havasına zərərli maddələrin atılmasına və zərərli fiziki təsirlərə icazə vermək;

3.1.20. ətraf mühitə və insan sağlamlığına mənfi təsir göstərən vibrasiya və nüfuzedici səs-küyün yolverilən səviyyəsinə nəzarət etmək;

3.1.21. dövlət uçotuna alınan və normalaşdırılan atmosfer havasına atılan zərərli maddələrin və ona fiziki təsir mənbələrinin müəssisə, təşkilatlar, şəhər və digər yaşayış məntəqələri üzrə siyahısının müəyyən edilməsi üçün Nazirliyə təkliflər vermək, atmosfer havasına zərərli təsirlərin dövlət uçotunun aparılmasında, onların ekoloji təhlükəlilik dərəcəsinin müəyyənləşdirilməsində iştirak etmək;

3.1.22. atmosfer havasına atılan zərərli maddələrin və ona fiziki təsir mənbələrinin inventarlaşdırılmasının yekun sənədinə razılıq vermək və bu işlərə metodiki rəhbərliyi həyata keçirmək;

3.1.23. su obyektlərindən səmərəli və məqsədyönlü istifadəyə, yerüstü və yeraltı suların çirklənməkdən qorunmasına fasiləsiz nəzarəti həyata keçirmək;

3.1.24. su mühafizə zonalarında təbii ehtiyatlardan istifadə və onların mühafizəsi rejiminə riayət edilməsinə, fiziki və hüquqi şəxslərin digər təsərrüfat fəaliyyətinə nəzarəti həyata keçirmək;

3.1.25. "Tullantılar haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq, tullantılarla bağlı fəaliyyətə dövlət nəzarətini həyata keçirmək;

3.1.26. tullantıların əmələ gəlməsi anından tam kənarlaşdırılmasınadək dövlət uçotunun və hesabatının aparılmasında iştirak etmək, təhlükəli tullantıların idarə olunmasına dair Nazirliyə təkliflər vermək;

3.1.27. təhlükəli tullantıların inventarlaşdırılmasına, uçotuna və pasportlaşdırılmasına nəzarətin həyata keçirilməsində iştirak etmək, təsnifat sisteminə yeni təhlükəli tullantı növlərinin daxil edilməsi barədə təklifləri Nazirliyə təqdim etmək;

3.1.28. tullantıların həcmi (kütləsi), növü və digər xüsusiyyətləri nəzərə alınmaqla müəyyən edilən tullantıların yığılması (toplanması), yerləşdirilməsinə, istifadəsinə və zərərsizləşdirilməsinə görə haqqın çirkləndiricilər tərəfindən ödənilməsini tələb etmək;

3.1.29. "Torpaqların münbitliyi haqqında" Azərbaycan Respublikasının Qanunu əsasən aidiyyəti qurumlarla birlikdə torpaqların münbitliyinin bərpasına və artırılmasına dair kompleks tədbirlərin həyata keçirilməsində iştirak etmək, torpaqların münbitlik xassələrini səciyyələndirən göstəricilərin uçotunu, monitorinqini aparmaq və bu barədə məlumat bankı yaratmaq;

3.1.30. faydalı qazıntıların hasilatı, aqrokimyəvi, meşəmeliorasiya, geoloji kəşfiyyat və torpaq qanunvericiliyinin tələblərinin pozulması ilə həyata keçirilən digər işlərin dayandırılmasında iştirak etmək, qadağan edilməsi təklifi ilə bu işləri həyata keçirən və ya onların həyata keçirilməsinə razılıq verən, yaxud belə işlərə nəzarət edən mərkəzi və yerli icra hakimiyyəti orqanlarına, bələdiyyələrə müraciət etmək məqsədilə Nazirliyə təkliflər vermək;

3.1.31. aidiyyəti qurumlarla birlikdə ekoloji təhlükəsizliyi təmin etmək, təbii ekoloji sistemlərə təsərrüfat və digər fəaliyyət nəticəsində dəyə biləcək zərərin qarşısını almaq üçün tədbirlər görmək;

3.1.32. yaşıllıqların uçotu və monitorinqi haqqında məlumatları toplamaq və Nazirliyin rəsmi internet səhifəsində yerləşdirilməsini təşkil etmək, yaşıllıqların kadastrını aparmaq, yaşıllıqların müfəssəl siyahısını tərtib etmək;

3.1.33. "Ətraf mühitin mühafizəsi haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq ekoloji tələblərin pozulması ilə əlaqədar müəssisələrdə, qurğu və obyektlərdə həyata keçirilən işlərin məhdudlaşdırılması və müvəqqəti dayandırılması, o cümlədən maliyyələşdirilməsinin dayandırılması, onların istismara verilməsinin qadağan edilməsi, təsərrüfat fəaliyyətinin və başqa fəaliyyətlərin dayandırılması və ya qadağan edilməsi ilə bağlı tədbirlər görmək;

3.1.34. təbii ehtiyatlardan istifadə və ətraf mühitin mühafizəsi sahəsində ayrı-ayrı fəaliyyət növlərinin həyata keçirilməsi üçün verilən lisenziya və icazənin, təbiətdən istifadə müqavilələrinin (kontraktların) şərtlərinə əməl edilməsini yoxlamaq, onların dayandırılması və ya ləğvi barədə qərar qəbul etmək;

3.1.35. informasiya təminatını təşkil etmək, təhlükəli və fövqəladə ekoloji vəziyyət yaranması barədə əhaliyə məlumat vermək və ekoloji təhlükəsizlik sahəsində vətəndaşların təlimatlandırılmasını təmin etmək;

3.1.36. "Ekoloji təhlükəsizlik haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq, ekoloji təhlükəsizlik sahəsində dövlət nəzarətini həyata keçirmək;

3.1.37. ətraf mühitin, heyvanlar və bitki aləminin mühafizəsinə, bərpasına və onlardan istifadəyə dövlət nəzarətini həyata keçirmək;

3.1.38. meşə fondunun vəziyyətinə, istifadəsinə, mühafizəsinə, qorunmasına, meşələrin bərpasına dövlət nəzarətini həyata keçirmək;

3.1.39. xüsusi mühafizə olunan təbiət ərazilərinin və obyektlərinin mühafizəsinə dövlət nəzarətini həyata keçirmək;

3.1.40. balıq və digər su bioresurslarından istifadəyə və onların mühafizəsinə dövlət nəzarətini həyata keçirmək;

3.1.41. ekoloji maarifləndirmə işini təşkil etmək;

3.1.42. müvafiq sahə üzrə dövlət və yerli özünüidarəetmə orqanlarının, qeyri-hökumət təşkilatlarının fəaliyyətinin əlaqələndirilməsində iştirak etmək;

3.1.43. qabaqcıl beynəlxalq təcrübəni nəzərə almaqla, müvafiq sahədə elmi-texniki nailiyyətlərin tətbiqini təmin etmək;

3.1.44. fəaliyyətinin təşkili ilə bağlı ayrılan dövlət büdcəsi vəsaitindən, kreditlərdən, qrantlardan və digər maliyyə vəsaitindən təyinatı üzrə səmərəli istifadə olunmasını təmin etmək;

3.1.45. dövlət sirrinin və məxfilik rejiminin qorunmasını təmin etmək, habelə fəaliyyət istiqamətlərinə uyğun təhlükəsizlik tədbirləri görmək;

3.1.46. öz fəaliyyəti haqqında əhalinin məlumatlandırılmasını, Nazirliyin internet saytında malik olduğu və açıqlanmalı informasiyanın davamlı yenilənməklə yerləşdirilməsini təmin etmək;

3.1.47. müvafiq sahədə peşəkar mütəxəssislərin hazırlanması və tədris proqramlarının tərtibi, əməkdaşların əlavə təhsili ilə bağlı Nazirliyə təkliflər vermək və onların həyata keçirilməsində iştirak etmək;

3.1.48. Naxçıvan Muxtar Respublikasının ərazisində müvafiq sahənin inkişafı üçün yerli və xarici müəssisələr, dövlət, qeyri-hökumət təşkilatları və özəl təşkilatlar ilə əməkdaşlıq etmək;

3.1.49. müvafiq sahədə elektron xidmətləri "Dövlət informasiya ehtiyatları və sistemlərinin formalaşdırılması, aparılması, inteqrasiyası və arxivləşdirilməsi Qaydaları"nın təsdiq edilməsi və elektron hökumətlə bağlı bəzi tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 12 sentyabr tarixli 263 nömrəli Fərmanına uyğun olaraq təşkil etmək;

3.1.50. Xidmətin fəaliyyəti ilə bağlı daxil olan müraciətlərə "Vətəndaşların müraciətləri haqqında", "İnzibati icraat haqqında" və "İnformasiya əldə etmək haqqında" Azərbaycan Respublikasının qanunlarına uyğun olaraq baxmaq və qanunla müəyyən edilmiş qaydada tədbirlər görmək;

3.1.51. strukturunun və fəaliyyətinin təkmilləşdirilməsi üçün Nazirliyə təkliflər vermək;

3.1.52. fəaliyyəti ilə bağlı yaranan arxiv sənədlərinin komplektləşdirilməsini, mühafizəsini və qeydiyyatını təmin etmək, bu məqsədlə "Milli arxiv fondu haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun digər tədbirləri görmək;

3.1.53. Azərbaycan Respublikası Prezidentinin və Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin aktları ilə müəyyən edilmiş digər vəzifələri yerinə yetirmək.

### 4. Xidmətin hüquqları

4.1. Öz vəzifələrini yerinə yetirmək üçün Xidmətin aşağıdakı hüquqları vardır:

4.1.1. müvafiq sahədə normativ-hüquqi aktın layihəsinin qəbul olunması, aktda dəyişiklik edilməsi, aktın şərh edilməsi, qüvvəsinin dayandırılması və ya ləğv edilməsi haqqında Nazirliyə təkliflər vermək;

4.1.2. təbii ehtiyatlardan (faydalı qazıntılar istisna olmaqla) istifadə və onların mühafizəsi qaydalarının, habelə siyahılarının müəyyənləşdirilməsinə dair təkliflər vermək;

4.1.3. ətraf mühitin mühafizəsi üzrə texnologiyaların təkmilləşdirilməsinə və tətbiqinə dair təkliflər hazırlamaq;

4.1.4. icrası məcburi olan göstərişlər vermək və bundan irəli gələn tədbirlər görmək;

4.1.5. daxili və xarici investisiyaların müvafiq sahəyə cəlb edilməsi və onlardan səmərəli istifadə olunması ilə bağlı tədbirlər görmək;

4.1.6. fəaliyyət istiqamətlərinə aid məsələlərlə bağlı araşdırmalar aparmaq, işçi qruplar və komissiyalar yaratmaq;

4.1.7. müstəqil ekspertləri və mütəxəssisləri qanunvericiliklə müəyyən edilmiş qaydada öz fəaliyyətinə cəlb etmək;

4.1.8. dövlət orqanlarına və qurumlarına, yerli özünüidarəetmə orqanlarına, digər hüquqi və fiziki şəxslərə səlahiyyətlərinə aid zəruri məlumatlar (sənədlər) barədə sorğu vermək və onlardan belə məlumatları (sənədləri) almaq;

4.1.9. müvafiq sahə üzrə beynəlxalq təcrübəni öyrənmək, fəaliyyət istiqamətlərinə və vəzifələrinə uyğun analitik materiallar hazırlamaq, təhlillər, tədqiqatlar aparmaq, rəy və təkliflərini Nazirliyə təqdim etmək;

4.1.10. xarici dövlətlərin müvafiq sahə ilə bağlı təcrübəsini öyrənmək;

4.1.11. əməkdaşlarını dövlət təltiflərinə və digər mükafatlara təqdim etmək, onların həvəsləndirilməsi üçün tədbirlər görmək;

4.1.12. fəaliyyət istiqamətlərinə uyğun xüsusi bülletenlər, nəşrlər buraxmaq, reklam-informasiya işlərini həyata keçirmək, müstəqil ekspert və mütəxəssisləri fəaliyyətinə cəlb etmək;

4.1.13. fəaliyyət istiqamətləri üzrə aparılan yoxlamalar (araşdırmalar, monitorinqlər) və onların nəticələri ilə bağlı görülən işlərə dair məlumatları təhlil etmək və informasiya bankı yaratmaq;

4.1.14. vəzifələrinə uyğun olaraq normativləri və digər göstəriciləri, onların müəyyən edilməsi üsullarının beynəlxalq standartlar, elmi-texniki tərəqqi və ekoloji vəziyyətin tələbləri nəzərə alınmaqla mütəmadi olaraq təkmilləşdirilməsi üçün Nazirliyə təkliflər vermək;

4.1.15. müvafiq sahə üzrə pozuntuların aradan qaldırılmasına dair qanunla müəyyən olunan qaydada fiziki şəxslərə, habelə vəzifəli şəxslərə və hüquqi şəxslərə qarşı tələblər irəli sürmək;

4.1.16. fəaliyyət istiqamətlərindən və vəzifələrindən irəli gələn tədbirlərin həyata keçirilməsi üçün dövlət və yerli özünüidarəetmə orqanlarına, təsərrüfat subyektlərinə, vəzifəli şəxslərə zəruri məlumatlar (sənədlər) barədə sorğu vermək və onlardan həmin məlumatları (sənədləri) almaq;

4.1.17. "Ətraf mühitin mühafizəsi haqqında" Azərbaycan Respublikasının Qanununa əsasən mülkiyyət formasından və tabeliyindən asılı olmayaraq, müəssisə, idarə, təşkilatlara və digər obyektlərə, o cümlədən hərbi və müdafiə obyektlərinə maneəsiz (xidməti vəsiqələri, sahibkarlıq fəaliyyəti ilə məşğul olan hüquqi və fiziki şəxslərin obyektlərinə daxil olarkən, həmçinin yoxlamanın həyata keçirilməsi haqqında qərarın surətini və yoxlamanın sahibkarlıq sahəsində aparılan yoxlamaların vahid məlumat reyestrində qeydiyyata alınması barədə çıxarışı təqdim etməklə) daxil olmaq, öz xidməti vəzifələrini yerinə yetirmək üçün zəruri sənədlərlə, o cümlədən analizlərin nəticələri ilə pulsuz tanış olmaq;

4.1.18. aidiyyəti qurumlarla birlikdə ekoloji təhlükəsizliyin təmin edilməsinə dair tədbirlərdə qarşılıqlı fəaliyyət göstərmək;

4.1.19. ekoloji tələblərin və ətraf mühitin keyfiyyət normativlərinin pozulması ilə həyata keçirilən ekoloji cəhətdən təhlükəli yüklərin (məmulatların), tullantıların və xammal ehtiyatlarının Naxçıvan Muxtar Respublikasının ərazisinə gətirilməsinə və həmçinin onun ərazisindən tranzit yolu ilə daşınmasına dair qərarın qəbul olunmasında iştirak etmək;

4.1.20. "Ətraf mühitin mühafizəsi haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq nəzarət funksiyalarının icrası zamanı xüsusi geyimlə təmin olunmaq, xüsusi vasitələr, xidməti silah gəzdirmək və saxlamaq;

4.1.21. Xidmətin fəaliyyətinin təkmilləşdirilməsi məqsədilə Nazirliyə təkliflər vermək;

4.1.22. ətraf mühitin mühafizəsi haqqında qanunvericiliyin pozulduğu hallar aşkar edildikdə, müvafiq protokol tərtib etmək və bu pozuntuların aradan qaldırılması məqsədilə qanunvericilikdə nəzərdə tutulan digər tədbirlər görmək;

4.1.23. müvafiq sahədə işçi qruplar və komissiyalar yaratmaq;

4.1.24. müvafiq sahə ilə bağlı seminarlar və digər tədbirlər keçirmək;

4.1.25. fəaliyyəti ilə bağlı Nazirliyə hesabatlar vermək;

4.1.26. öz vəzifələrini icra edərkən digər dövlət orqanları ilə qarşılıqlı əlaqədə fəaliyyət göstərmək;

4.1.27. Azərbaycan Respublikası Prezidentinin və Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin aktları ilə müəyyən edilmiş digər hüquqları həyata keçirmək.

### 5. Xidmətin fəaliyyətinin təşkili

5.1. Xidmətə Naxçıvan Muxtar Respublikasının ekologiya və təbii sərvətlər naziri tərəfindən vəzifəyə təyin və vəzifədən azad edilən rəis rəhbərlik edir.

5.2. Xidmətin rəisi Xidmətə həvalə olunmuş vəzifələrin

Ardı 3-cü səhifədə

yerinə yetirilməsinə və hüquqların həyata keçirilməsinə görə şəxsən məsuliyyət daşıyır.

5.3. Xidmət rəisinin Naxçıvan Muxtar Respublikasının ekologiya və təbii sərvətlər naziri tərəfindən vəzifəyə təyin və vəzifədən azad edilən bir müavini vardır. Xidmət rəisinin müavini Xidmət rəisinin ona həvalə etdiyi vəzifələri yerinə yetirir və bunun üçün şəxsən məsuliyyət daşıyır.

5.4. Xidmətin rəisi:

5.4.1. Xidmətin fəaliyyətini təşkil edir və ona rəhbərlik edir;

5.4.2. Xidmət rəisinin müavini, Naxçıvan Muxtar Respublikası ekologiya və təbii sərvətlər nazirinin vəzifəyə təyin etdiyi digər struktur bölmələrinin rəhbərləri istisna olmaqla, Xidmətin işçilərini vəzifəyə təyin və vəzifədən azad edir, işçilərlə əmək müqavilələri bağlayır, onların fəaliyyətinə rəhbərlik edir, qanunda nəzərdə tutulmuş qaydada həvəsləndirmə və intizam tənbehi tədbirləri görür;

5.4.3. işçilərin peşə hazırlığı və əlavə təhsili üçün zəruri tədbirlər görür;

5.4.4. müəyyən olunmuş əməyin ödənilməsi fondu və işçilərin say həddi daxilində Xidmətin strukturunu, ştat cədvəlini və xərclər smetasını, habelə struktur bölmələrinin əsasnamələrini təsdiq olunmaq üçün Nazirliyə təqdim edir;

5.4.5. dövlət və yerli özünüidarəetmə orqanları ilə, hüquqi və fiziki şəxslərlə münasibətlərdə Xidməti təmsil edir;

5.4.6. Xidmətin strukturunun və fəaliyyətinin təkmilləşdirilməsi, maddi-texniki bazasının möhkəmləndirilməsi barədə Nazirliyə təkliflər verir;

5.4.7. Xidmətin vəzifəli şəxslərinin qanunazidd aktlarını ləğv edir;

5.4.8. Nazirliyin verdiyi səlahiyyətlər daxilində Xidmətin fəaliyyət istiqamətlərinə aid məsələlərlə bağlı məhkəmələrdə Nazirliyi təmsil edir;

5.4.9. Xidmətə ayrılmış vəsaitin təyinatı üzrə xərclənməsini təmin edir və bu barədə hesabatı Nazirliyə təqdim edir;

5.4.10. Xidmətin illik və perspektiv iş planlarının tərtib olunmasını təmin edir;

5.4.11. müvafiq sahənin inkişafına dair təklifləri, Xidmətin fəaliyyətinə dair illik hesabatları Nazirliyə təqdim edir;

5.4.12. Xidmətin fəaliyyətinə dair əmr, sərəncam və göstərişlər verir, habelə onların icrasına nəzarəti həyata keçirir.



## Vətəndaşların Qəbulu Otağı istifadəyə verilib

*Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin yeni yaradılan Vətəndaşların Qəbulu Otağı istifadəyə verilib.*

Naxçıvan Muxtar Respublikasının əmək və əhalinin sosial müdafiəsi naziri Ceyhun Cəlilov Mərkəzləşdirilmiş elektron informasiya sisteminin strukturuna daxil olan “Vətəndaşların qəbulu” altsistemi və qəbul otağında yaradılan şərait barədə Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsinin müavini Samir Seyidəhmədliyə məlumat verib.

Qeyd edək ki, müasir texnologiyalar və avadanlıqlarla təmin olunmuş Vətəndaşların Qəbulu Otağı həftənin iş günləri saat $9^{00}$-dan $18^{00}$-a kimi fəaliyyət göstərəcək.

Qəbul otağında vətəndaşların müraciətinin qəbul edilib, müvafiq xidmət pəncərələrinə yönləndirilməsi və elektron növbə sistemi üçün məlumat masası, müraciət edən vətəndaşların rahatlıqlarının təmin edilməsi üçün oturacaqlar, növbə ardıcıllığını əks etdirən monitor və sağlamlıq imkanları məhdud şəxslərin qəbul zamanı rahat hərəkətlərini təmin etmək üçün zəruri xidmət vasitələri ilə təchiz edilmiş gözləmə zalı, müvafiq olaraq qəbul edilən müraciətlərin cavablandırılması üzrə xidmət masaları fəaliyyət göstərir.

Qeyd edək ki, xidmət səviyyəsinin ölçülməsi məqsədilə video və səs qeydiyyatı aparılır.

***Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin mətbuat xidməti***

***Dekabr ayı ərzində dünyanın müxtəlif ölkələrində yaşayan həmvətənlərimizdən alınmış müsahibələri, onların hazırladığı yazıları “Şərq qapısı” qəzetində görəcəksiniz.***

## Həmrəyliyimizin ən böyük ideyası – Azərbaycançılıq



### Tarixi Zəfərimiz beynəlxalq səviyyədə biz azərbaycanlılara olan münasibəti müsbət mənada dəyişib



**Sedat ŞAMİLLİ**

***“Xarıbülbül” Dünya Azərbaycanlıları Mədəniyyət Assosiasiyasının sədri***

Müsahibimiz “Xarıbülbül” Dünya Azərbaycanlıları Mədəniyyət Assosiasiyasının sədri ***Sedat Şamilli****dir*. Artıq 2 ildir, Polşada yaşayan həmvətənimiz 1996-cı ildə Şəki rayonu, Kiçik Dəhnə kəndində anadan olub. Orta təhsilini Şəki rayonunda başa vuraraq Bakı Dövlət Universitetində Yaponiya üzrə Regionşünaslıq ixtisasında ilk bakalavr təhsilini alıb. İkinci bakalavr təhsilini Türkiyə Respublikası Rəcəb Tayyib Ərdoğan Universitetində Siyasət və xalq idarəsi ixtisası üzrə alan müsahibimiz, 2021-ci ildə magistr təhsili almaq üçün Polşa Respublikasına yollanıb. Varşavada İqtisadiyyat və İnsan Elmləri Universitetinin İqtisadiyyat və mühasibat ixtisasını bitirən gənc həmvətənimiz təhsil aldığı illər ərzində ölkədaxili olimpiadalarda nailiyyətlər əldə edib. Azərbaycanda və qardaş ölkə Türkiyədə fəaliyyət göstərən həmkarlar ittifaqı, gənclər birliyi kimi təşkilatlarla əməkdaşlıq edib. Siyasi biliyini artırmaq məqsədilə debatların iştirakçısı olub.

Müsahibimiz diaspor fəaliyyətindən xüsusilə bəhs etdi: “2021-ci ildən Polşa Respublikasında diaspor fəalı olaraq dövlətçiliyimizi təbliğ etmək məqsədilə fəaliyyətə başlamışam. 2022-ci il dekabrın 1-dən Polşa Respublikasında qurulmuş və Avropa İttifaqından rəsmi qeydiyyatdan keçmiş “Xarıbülbül” Dünya Azərbaycanlıları Mədəniyyət Assosiasiyasının sədri seçilmişəm və diaspor işlərinə bu minvalla davam etmişəm. Eyni zamanda 5 iyul 2023-cü ildə Azərbaycan Diasporla İş üzrə Dövlət Komitəsinin təşkilatçılığı ilə keçirilmiş Polşa üzrə koordinator seçimlərində baş koordinator seçilmişəm”.

Sedat Şamilli deyir ki, xaricdə yaşayan bir Azərbaycan gənci olaraq ölkəmizin mənafeyini hər şeydən üstün tuturam. Bizimlə burada yaşayan azərbaycanlı vətəndaşlara əlimizdən gələn dəstəyi göstərir, onların rifah içində yaşaması üçün genişmiqyaslı işlər görməyə çalışırıq. Avropa mühitində Azərbaycan



cəmiyyətinin ən yüksək şəkildə təmsil olunması, adət-ənənələrimizin, dövlətçiliyimizin təbliği birinci növbəli hədəflərimizdəndir. Burada keçirdiyimiz siyasi, elmi və mədəni tədbirlər xalqımızın, onun tarixi, mədəni irsinin ən layiqli şəkildə tanıdılması üçündür. İkinci Qarabağ müharibəsində Ali Baş Komandan cənab İlham Əliyevin başçılığı ilə qazandığımız tarixi Zəfər beynəlxalq səviyyədə biz azərbaycanlılara olan münasibəti müsbət mənada dəyişib. Azərbaycan gəncliyi Azərbaycanın gələcəyi üçün əsas sütun daşıdır, bu sütun daşının möhkəmliyi elm və təhsildən keçir. Biz, öz növbəmizdə, təhsil üçün Polşaya gəlmiş gənclərin uğur əldə etməsi və karyera qurması istiqamətində dəstək oluruq və əminik ki, bu, həmrəyliyimiz və diasporumuzun güclənməsi naminə onların gələcək fəaliyyətlərinə müsbət mənada təsir göstərəcəkdir.

Müsahibimiz son olaraq 31 Dekabr – Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü münasibətilə öz arzularını da ifadə edir: “Dünya azərbaycanlılarının birliyinin rəmzi olan həmrəylik günü münasibətilə xalqımızı təbrik edirəm, dövlətçiliyimizin inkişafı məqsədilə görülən hər işdə uğur arzu edirəm”.

## Konsertlər, tamaşalar, sərgilər

### *Ötən ay hansı mədəni tədbirlərlə yadda qaldı?*

*Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyi tərəfindən noyabr ayında müvafiq fərman və sərəncamların, qəbul edilmiş Dövlət proqramlarının icrası diqqətdə saxlanılıb, müxtəlif mədəni-kütləvi tədbirlər keçirilib, insanların mədəni istirahətinin təmininə həssaslıqla yanaşılıb.*

“Heydər Əliyev İli” çərçivəsində Heydər Əliyev Muzeyi tərəfindən dahi liderə həsr olunmuş albom-kataloqun hazırlanması işi davam etdirilib. Naxçıvan Dövlət Filarmoniyasının Mahnı və Rəqs Ansamblı Sədərək rayonunda, Filarmoniyanın Kamera Orkestri Türkiyə Cümhuriyyətinin Trabzon şəhərində konsert proqramı ilə çıxış edib. Rayon mədəniyyət saraylarında, kitabxana və muzeylərdə Ulu Öndərə həsr olunmuş müxtəlif tədbirlər, müzakirələr, konsertlər keçirilib.

Muxtar diyarın bütün sahələrdə inkişafına hesablanmış “Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı”nda nəzərdə tutulmuş tədbirlərin icrası ilə bağlı Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyi tərəfindən ötən dövr ərzində bir sıra işlər görülüb. Belə ki, Təfsilatlı Tədbirlər Planının müvafiq maddələrinin icrası ilə əlaqədar qurumların mütəxəssislərindən ibarət komissiyanın yaradılması ilə bağlı Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinə müraciət edilib və qərar layihəsi hazırlanıb.

Naxçıvan şəhərində Muzey Mərkəzinin tikilməsinin layihələndirilməsi, Naxçıvan Dövlət Filarmoniyası və Naxçıvan Dövlət Uşaq Filarmoniyası, Naxçıvan Dövlət Kukla və Uşaq teatrları üçün yeni binaların tikintisi ilə bağlı layihə sənədlərinin hazırlanması, dövlət teatr və konsert müəssisələrinin, uşaq musiqi məktəblərinin, yaradıcı kollektivlərin maddi-texniki bazasının gücləndirilməsi ilə bağlı hazırlanmış layihə tapşırıqlarına rəy verilməsi, eyni zamanda Təfsilatlı Tədbirlər Planında əsas icraçısı Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi olan yarımbəndlərinin icrası ilə bağlı qarşılıqlı iş aparılması barədə həmin quruma müraciət edilib. Həmçinin nazirliyin tabeliyindəki mədəniyyət müəssisələrinə lazım olan kompüter və avadanlıqların satın alınması ilə əlaqədar,



Naxçıvan Dövlət Filarmoniyasının və “Şərur” Xalq Yallı Ansamblının kollektivləri üçün səhnə geyimlərinin satın alınması üzrə, uşaq musiqi, incəsənət və bədii sənətkarlıq məktəblərinə, Naxçıvan Dövlət Filarmoniyasına və Naxçıvan Dövlət Uşaq Filarmoniyasına ehtiyac olan musiqi aləti və texniki avadanlıqların satın alınması, yerində quraşdırılması və sazlanması üzrə və nazirliyin tabeliyindəki mədəniyyət müəssisələrinə ehtiyac olan səs və işıq avadanlıqlarının satın alınması üzrə *“etender.gov.az”* portalı vasitəsilə açıq tender elan olunub.

Ötən ay Naxçıvan şəhərindəki Heydər Əliyev Muzeyinin qarşısında Zəfər Günü münasibətilə keçirilən “Milli qürur günümüz” adlı konsert maraqla qarşılanıb, Əlahiddə Ümumqoşun Ordunun Naxçıvan Muxtar Respublikası ərazisində dislokasiya olunmuş hərbi hissə və bölmələrinin şəxsi heyətinə şəhər və rayon mədəniyyət idarə və şöbələrinin musiqi kollektivləri tərəfindən konsert proqramları təqdim edilib. Eyni zamanda Naxçıvan şəhərindəki “Gənclik” Mərkəzində “Xarıbülbül əfsanəsi”, “Oğul” sənədli filmləri nümayiş olunub.



Mədəniyyət Nazirliyi tərəfindən noyabr ayı ərzində Qərbi Azərbaycanla bağlı işin aparılması diqqətdə saxlanılıb, Mədəniyyət evləri tərəfindən qərbi azərbaycanlı sakinlərdən yer adları və folklor nümunələri toplanıb. Eyni zamanda ölkəmizdə ilk dəfə olaraq Naxçıvanda keçirilən “Qərbi Azərbaycana qayıdış” festival-konqresinin hazırlanıb keçirilməsi ilə bağlı iş aparılıb, Heydər Əliyev Sarayında festivalın sərgisi hazırlanıb. Tədbirin bədii hissəsində Naxçıvan Dövlət Filarmoniyası, rayon mədəniyyət idarə və şöbələrinin musiqi kollektivləri tərəfindən Qərbi Azərbaycanla bağlı yallılar, saz havaları, mahnılar təqdim edilib.

Ötən ay Naxçıvan teatrlarında repertuardakı tamaşaların nümayişi ilə yanaşı, yeni tamaşaların məşqləri də aparılıb, dövlət teatrları tərəfindən, ümumilikdə, 17 tamaşa oynanılıb. Naxçıvan Dövlət Milli Dram Teatrı “Qonaq teatr” layihəsi çərçivəsində “Edama məhkumun son günü” tamaşası ilə Bakı şəhərində qastrol səfərində olub. Babək Rayon Xalq Teatrı tərəfindən “Ezop”, Kazım Ziya adına Ordubad Rayon Xalq Teatrı tərəfindən “Ana” tamaşaları nümayiş olunub.

Muxtar diyarda noyabr ayında nümunəvi muzey xidməti göstərilməsi diqqət mərkəzində saxlanılıb, muzeylərdə müxtəlif tədbirlər, seminarlar keçirilib, 34 açıq dərs və 21 mühazirə gerçəkləşib. Hesabat dövrü ərzində muzeyləri 30 min 244 nəfər yerli, 16 min 87 nəfər əcnəbi olmaqla, ümumilikdə, 46 min 331 nəfər ziyarət edib, muzeylərə 57 yeni eksponat daxil olunub.

Noyabr ayında kitabxanalarda keçirilən tədbirlərin səmərəliliyinə nəzarət artırılıb, yubileylər, əlamətdar və tarixi günlərlə bağlı tədbirlər keçirilib, sərgilər qurulub, sağlamlıq imkanları məhdud 24 uşağa səyyar kitabxana xidməti göstərilib. M.S.Ordubadi adına Naxçıvan Muxtar Respublika Kitabxanasının Elektron kitabxanasında elektron kataloqda kitabların sayı 36 min 349-a çatdırılıb. Ay ərzində elektron kitabxanadan lokal şəbəkədən 397, qlobal şəbəkədən 101 olmaqla, 498 oxucu istifadə edib.

Noyabr ayında klub müəssisələrinin fəaliyyəti də diqqət mərkəzində saxlanılıb, Azərbaycan xalqının adət-ənənələri, milli-mənəvi dəyərlərinin təbliği və yaşadılması istiqamətində iş aparılıb, Mədəniyyət üzrə Elmi-Metodiki Mərkəz tərəfindən Qərbi Azərbaycan adət-ənənələri ilə bağlı 2 ssenari mətni hazırlanıb, müxtəlif tədbirlər keçirilib.

Naxçıvan Dövlət Film Fondu tərəfindən Azərbaycanın tarixi, mədəniyyəti ilə bağlı filmlərin nümayişi diqqətdə saxlanılıb, ümumilikdə, 19 film nümayiş olunub.

***Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyinin mətbuat xidməti***

Xalq təqvimi

# Çillə gəlsin, xoş gəlsin

*Qədim türklərin mövsüm və mərasimlər haqqındakı düşüncələri onların, bu mənada, icra etdikləri ayin və rituallarda özünü göstərir. Hər mövsümdə təbiətin müxtəlifliyi qədim insanın təəccübünə səbəb olmuşdur. Bu təəccübündən də irəli gələrək müxtəlif ayinlər, rituallar icra etmişdilər. Hər fəsildə baş verən hava dəyişikliyi, təbiət hadisələri insanların onları özlərinə ram etmək haqqında tədbirlərinin gerçəkləşməsini şərtləndirmişdir. Odur ki, mövsümlə bağlı dəyişikliklər insanları maraqlı ayin və ritualları həyata keçirməyə təhrik etmişdir. Bunların çoxunun zaman-zaman icra olunması müxtəlif mövsüm mərasimi faktlarının müasir günümüzdə də formalaşması və icrasını gerçəkləşdirmişdir.*



Türk xalqlarında mövcud olan qədim mifoloji düşüncəyə görə, qış xalqın təqviminə əsasən dövrlərə – çillələrə bölünür. Çillə əziyyətdən, məşəqqətdən, zülmdən çıxmaq mənasındadır. Bizim müasir dilimizdə çillədən çıxmaq ifadəsi var. Əgər bir adam günlərlə evdən çıxmasa, zarafatla onun haqqında deyərlər ki, filankəs çilə çıxardır. Amma bu zarafatın arxasında böyük bir inam var. Xalq belə təsəvvür edir ki, qış təbiətin məşəqqətli bir zamanıdır. Bu zamandan aciz insanın çıxması son dərəcə çətindir. O qışdan çıxmaq insanın, doğrudan da, bayram etməsinə dəyən bir keçid dövrüdür:

*Çillə gəlsin, xoş gəlsin,*
*Qar talaya tuş gəlsin.*
*Ağır qardan bərəkət,*
*Şəhərimizə xoş gəlsin.*

Böyük çillə, Kiçik çillə, Boz ay mərhələləri Novruz bayramına qədərki çox vacib mərhələlərdir. Məlum olduğu kimi, Böyük çillə dönəmində havalar mülayim keçir. Qışın şaxtalı, sərt günləri bu dönəmdə sonrakı mərhələyə nisbətən az olur. Və qış öz “hökmünü” sonra – Kiçik çillə dövründə daha aydın göstərir. Qışın ikinci mərhələsi sayılan Kiçik çillə dönəmində hava, adətən, Böyük çillə ilə müqayisədə çox soyuq keçir. Elə xalq da deyir ki, əsas şaxta Böyük çillədən sonra olur, yəni Kiçik çillədə. Bu Kiçik çillə çox sərt olur. O qədər soyuq, şaxtalı keçir ki, meşədə heyvanlar, çöldə quşlar üşüyür, donur. 20 günlük Kiçik çillə nə qədər sərt olsa da, ömrü qısadır. Bu vaxt həm də günlər uzanır. Xalq yaddaşında bəzən iki qardaş, bəzən də iki bacı kimi təsvir edilən Böyük çillə və Kiçik çillə bir-birinə qarşı qoyulur. Böyük çillə nə qədər yumşaq təbiətli olaraq obrazlaşdırılırsa, Kiçik çillə onun əksinə olaraq öz təbiəti etibarilə sərt, ərköyün obraz kimi xarakterizə olunur. Bir poetik nümunədə də bu məqam öz əksini tapır:

*“Kiçik çillə..*
*Boyu bir belə...*
*Hikkəsi bir belə..*
*Gəlişi oldu*
*Hayınan.*
*Gedişi oldu*
*Vayınan...”.*

Nümunədən göründüyü kimi, Kiçik çillə ərəfəsində hava o qədər soyuq və şaxtalı günlərlə müşayiət olunur ki, belə hava şəraiti insanlara, təsərrüfata kəskin ziyan vurur. İnsanlar lap əvvəllərdən ilin bu dönəmini ilin ən sərt vaxtı kimi qarşılamışlar. İlin bu dönəminin sərtliyinin insanların yaşayış tərzinə, təsərrüfata da mənfi təsirlərini nəzərə alaraq hazırlıqlar görmüşlər. Xalq öz düşüncəsində ilin bu dönəmini – Kiçik çillə dönəmini “qışın oğlan çağı” da adlandırmışdır. Ulu əcdadlarımız Kiçik çillənin bu qədər sərt havalı olmasını maraqlı fəlsəfə ilə qarşılamışlar: evin kiçik övladı həmişə ərköyün olduğu üçün Kiçik çillə də öz ərköyünlüyünü belə göstərir.

Məlum olduğu kimi, Böyük çillə dekabr ayının 20-də daxil olur. Hava əvvəldən düşünülən kimi elə də soyuq keçmir. Çillənin daxil olması 20-si axşama təsadüf edir. İnsanlar çilləni xoş qarşılamaq üçün müxtəlif ayin və rituallar həyata keçirirlər. Evlərdə qovurğa qovrulur, süfrələr müxtəlif nemətlərlə bəzədilir. Növbənöv şirniyyatlarla bəzənmiş süfrələrdə qarpızın olması artıq mütləq məqama çevrilib. Qeyd edək ki, bu şirniyyatları evlərdə qadınlar özləri hazırlayarlar. Çillə gecəsində hər evdə çillə qarpızının kəsilməsi Naxçıvanın ənənəvi mərasimlərindəndir. Çillə qarpızının sakral, yəni müqəddəs tərəflərindən biri də odur ki, bu qarpızı ailənin hər bir üzvü dadmalıdır. Hətta nişanlı qız və ya oğlan evlərinə də çillə qarpızı xonçalarda aparılar. Çillə qarpızının aparıldığı nişanlı qız evində qarpızın yarısı kəsilərək yenidən oğlan evinə göndərilər. Təzə ailə quran gəlinlərin evinə valideynləri tərəfindən də çillə qarpızının olduğu xonça aparılar. Bu adət, əsasən, Naxçıvan ərazilərində müşahidə olunur. Çillə qarpızının mövsümdən sözügedən günədək saxlanmasının da özünəməxsus texnologiyası vardır. Belə ki, onu samanın içərisində sərin yerdə saxlayarlar. Üstünün cızılmamasına, çatlamamasına nəzarət edərlər. Zamanında – 20 dekabr axşamında qarpızın süfrədə olması ev əhlini sevindirər. Çillə qarpızının yer aldığı xonçada onun ətrafına mövsümi meyvələrdən də düzülər. Bəzi regionlarda narın da süfrədə olması məqsədəuyğun hesab edilir.





Çillə qarpızının aparıldığı nişanlı qız evində şənlik, coşqu başlayar. Bir xalq bayatısında deyildiyi kimi:

*Bu qarpız, çillə qarpız,*
*Düşübdü dilə qarpız.*
*Düzülüb xonçalara,*
*Gedir yargilə qarpız.*

Çillə gecəsinin məşhur atributu olaraq məhz qarpız kəsilməsinin də sakral tərəfləri mövcuddur. Bu sakrallıq qarpızın üstünün və içinin rənglərində təcəssüm edir. Qara qışdan, onun vuracağı ziyandan ehtiyat edən qədim insan önləyici tədbirlər məqsədilə keçirtdiyi ayinlərdə müxtəlif atributlardan, simvolik əşya və meyvələrdən də istifadə etmişdir. Qarpızın yaşıl və qırmızı rənglərin məcmusundan ibarət olması onun bu mərasim üçün uyğun olduğunu şərtləndirmiş və qədim insan da bu rənglərlə Tanrıdan canlı təbiət, istilik, od arzu etmişdir. Məlum olduğu qədər Günəşin yerdəki simvolu olan od, ocağın da atributu qırmızı rəngdir. Qırmızı rəngin həm də şər qüvvələrdən, bəd ruhlardan qoruma funksiyası da mövcuddur.

Böyük çillədə indi unudulmuş, əvvəllər isə aktiv şəkildə icra olunan saya mərasimi keçirilib. Bu barədə folkorşünas M.Kazımoğlu maraqlı məlumatlar verərək yazır ki, saya mərasimi qoyunçuluqla birbaşa əlaqəsi olan mərasim idi. Saya mərasimi bizim indiki Kosa-kosa mərasiminə oxşar detallarla müşayiət olunub. Məsələn, adamlar, xüsusi oyunbazlar, məsxərəçilər çoban paltarı geyinər, əllərinə quzu dərisi alıb və qapı-qapı gəzərək xüsusi nəğmələr oxuyaraq pay yığarmışlar:

*Salamməleyk say bəylər,*
*Bir-birindən yey bəylər.*
*Saya gəldi gördünüzmü,*
*Sayaya salam verdinizmi?*

“Sayaçı sözlər” adlı janrın adı da bu bayramın qalığıdır. Saya sözü çuvaşlardakı “çaya” sözü ilə səsləşir. Deməli, digər türk xalqlarında da saya bayramları keçirilib. Bizdə bu gün bu bayram mətnlər şəklində qalır, mərasim şəklində qalmır. Bu bayram, təxminən, yanvar ayının ortalarında, qoç sürüyə daxil olan vaxtda keçirilib. Qoçu xüsusi qırmızı parçalarla bəzəyər və onu sevinclə sürüyə qatardılar və ümid edərdilər ki, həmin o saya və ya çaya adlı hami ruh insanlara kömək edəcək ki, məhsul bol olsun.

*Çilləniz mübarək,*
*əziz xalqımız!*

**Aytən CƏFƏROVA**
***filologiya üzrə fəlsəfə doktoru, dosent***

## Naxçıvan Muxtar Respublikasının Hərracların Təşkili üzrə Auksion Mərkəzi tərəfindən 9 yanvar 2024-cü il tarixdə açıq hərraca çıxarılacaq əmlaklar haqqında məlumat

| S/s | Hərraca çıxarılacaq obyektin adı | Ünvanı | İstismara verildiyi il | Obyektin tam dəyəri 100 faiz (manatla) | Obyektin ikinci hərrac satış qiyməti (manatla) | Behin həcmi 10 faiz |
|---|---|---|---|---|---|---|
| 1. | Tikintisi yarımçıq qalmış Konserv Zavodu Təyinatı saxlanılmaqla (9.23 hektar torpaq sahəsi ilə birlikdə) | Ordubad rayonu, Şəhriyar qəsəbəsi | 1992 | 2.608.270,0 | 2.608.170,0 | 260.817,0 |
| 2. | Oksigen istehsalı müəssisəsi | Naxçıvan şəhəri, Ə.Qəmküsar küçəsi | 2022 | 2.164.772,0 | 2.164.772,0 | 216.477,2 |
| 3. | Qeyri-yaşayış sahəsi (Ordubad Texniki Peşə və Sürücülük Məktəbinin köhnə binası) | Ordubad şəhəri | 1961 | 81351.0 | 81351.0 | 8135.10 |
| 4. | Üniversam binasının 2-ci mərtəbəsindəki qeyri-yaşayış sahələri (3 otaq) | Şərur şəhəri, Kapitan Seyidov küçəsi 3A | 1991 | 72828.0 | 72828,0 | 7282.80 |
| 5. | Çörəkxana binasının yarımçıq tikilisi | Sədərək rayonu, Sədərək kəndi | 1990 | 58300.0 | 58300.0 | 5830.0 |
| 6. | Ümumi sahəsi 462.65 kvadratmetr olan qeyri-yaşayış sahəsi (Dəstə kənd 2 nömrəli tam orta məktəbin köhnə binası, 1870 kvadratmetr torpaq sahəsi ilə birlikdə ) | Ordubad rayonu, Dəstə kəndi | 1950 | 27856.0 | 27856.0 | 2785.6 |
| 7. | Ümumi sahəsi 99.22 kvadratmetr olan qeyri-yaşayış sahəsi | Kəngərli rayonu, Qarabağlar kəndi | 1961 | 27367.0 | 27367.0 | 2736.70 |
| 8. | Ümumi sahəsi 416.0 kvadratmetr olan qeyri-yaşayış sahəsi (Tivi kənd tam orta məktəbinin köhnə binası, 3000.0 kvadratmetr torpaq sahəsi ilə birlikdə) | Ordubad rayonu, Tivi kəndi | 1950 | 25640.0 | 25640.0 | 2564.0 |
| 9. | Ümumi sahəsi 126.92 kvadratmetr olan qeyri-yaşayış sahəsi (Ələhi kənd tam orta məktəbinin köhnə binası, 1765.0 kvadratmetr torpaq sahəsi ilə birlikdə ) | Ordubad rayonu, Ələhi kəndi | 1950 | 9489.3 | 9489.3 | 948.9 |
| 10. | Ümumi sahəsi 92.4 kvadratmetr olan qeyri-yaşayış sahəsi (Məzrə kənd tam orta məktəbinin köhnə binası, 630.0 kvadratmetr torpaq sahəsi ilə birlikdə) | Ordubad rayonu, Məzrə kəndi | 1950 | 6510.0 | 6510.0 | 651.0 |

Hərracda qanunvericiliyə müvafiq olaraq alıcı hesab edilən, sifarişi və digər zəruri sənədləri təqdim etmiş hüquqi və fiziki şəxslər iştirak edə bilərlər. Hərraca çıxarılan əmlakların ilkin satış qiymətinin 10 faiz məbləğində beh mərkəzin xəzinə hesabına 7 yanvar 2024-cü il tarixədək ödənilməlidir.

Sifarişlər Naxçıvan Muxtar Respublikasının Hərracların Təşkili üzrə Auksion Mərkəzində (8-ci küçə, 1/5A ) qəbul olunacaqdır. Məlumat dərc olunduğu vaxtdan auksionda iştirak etmək arzusunda olan hüquqi və fiziki şəxslər satışa çıxarılan əmlakların sənədləri ilə mərkəzdə tanış ola bilərlər.

Auksionda iştirak etmək üçün aşağıdakı sənədlər təqdim olunur:

- *müvafiq formada sifariş;*
- *ödəniləcək behin qəbzi;*
- *hüquqi şəxslər üçün təsis sənədlərinin müəyyən olunmuş qaydada təsdiq edilmiş surəti;*
- *fiziki şəxslər üçün şəxsiyyəti təsdiq edən sənədin surəti.*

Hərrac 9 yanvar 2024-cü il tarixdə saat $11^{00}$-da mərkəzdə keçiriləcəkdir.

Əlavə məlumatı Naxçıvan Muxtar Respublikasının Hərracların Təşkili üzrə Auksion Mərkəzindən ala bilərsiniz.

***Əlaqə telefonu: 545-01-38***

## Naxçıvandan üç kikboksçu ölkə birinciliyinin mükafatçısı olub

Hövsan Olimpiya İdman Kompleksində kikboksinq üzrə yeniyetmə və gənclər arasında XXVII Azərbaycan birinciliyi keçirilib. Ölkənin müxtəlif bölgələri və paytaxt Bakıdan 70 komandanın 500-dən çox idmançısı medallar uğrunda mübarizə aparıb.




Yarışa Naxçıvan Kikboksinq Federasiyasının baş məşqçisi Etibar Qəribovun rəhbərliyi ilə muxtar respublikadan 14 idmançı qatılıb. Təmsilçilərimiz 1 qızıl, 1 gümüş və 1 bürünc medal qazanmağa nail olub.

Son vaxtlar uğurlu nəticələri ilə diqqətçəkən İnci Allahverdiyeva ölkə birinciliyini də nailiyyətlə tamamlayıb. İdmançımız 2008-2009-cu il təvəllüdlü qızlar arasında 60 kiloqram çəki dərəcəsi üzrə birinci olub. Eyni yaş kateqoriyasında finaladək ağır döyüşlərdən qalib ayrılan Uğur Əliyev (63,5 kiloqram) həlledici görüşdə istəyinə çata bilmədiyindən ikinciliklə kifayətlənib. Gənclər arasında çıxış edən Zeynalabdin Musayev (90 kiloqram) isə üçüncü yerə sahib çıxıb.

Qeyd edək ki, adıçəkilənlər və digərləri üçün ölkə birinciliyində iştirak bu baxımdan ilk təcrübədir.

***Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin mətbuat xidməti***

### İtmişdir

Kəngərli rayonunun Xok kəndində yaşamış Tağıyev Fərman Ağoş oğlunun adına olan JN-274A inventar nömrəli, 10800038 kodlu “Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə” itdiyindən etibarsız sayılır.

***

Cənnətov Məhəmməd Elşən oğlunun adına olan leytenantın MN-0064486 seriya nömrəli hərbi bileti itdiyindən etibarsız sayılır.

***

14 yanvar 2022-ci il tarixli 7160 inventar nömrəli daşınmaz əmlakın texniki pasportu itdiyindən etibarsız sayılır.

***

Nehrəm qəsəbə sakini İmanov Nəcəfqulu İmamqulu oğlunun adına olan JN-1009A nömrəli “Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə” itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı
Baş redaktor müavini: MƏMMƏD BABAYEV
Ünvan: AZ-7000, Naxçıvan şəhəri, “Təbriz” küçəsi 14.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: info@serqqapisi.gov.az
Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır
Nömrəyə məsul: Güntac Şahməmmədli
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1000. Sifariş № 735